**Qax rayonunun Sarıbaş kəndində "Tunqay Məlik" oynanılan zaman oxunan sözlər:**

Çay aşağı getmərəm, Tunqay Məlik;
Çadramı yellətmərəm, salam əleyküm!
Dünya alışsa yansa, Tunqay Məlik;
Dul kişiyə getmərəm, salam əleyküm!

Qara at aşdı getdi, Tunqay Məlik;
Gədikdən aşdı getdi, salam əleyküm!
Biçələrə[1] muştulluq, Tunqay Məlik;
Bəylər barışdı getdi, salam əleyküm!

Məhlədə qoç yatıbdır, Tunqay Məlik;
Qoç buynuza çatıbdır, salam əleyküm!
Heyif qoçun qolları,Tunqay Məlik;
Quru yerdə yatıbdır, salam əleyküm!

Göy məhlədə göy bulaq, Tunqay Məlik;
Gəl gedək su dolduraq, salam əleyküm!
Eşqimlə sevdim səni, Tunqay Məlik;
İndi necə ayrılaq, salam əleyküm!

Qoyun gəldi quzuyla, Tunqay Məlik;
Ayağının tozuyla, salam əleyküm!
Bir evə qardaş gəldi, Tunqay Məlik;
Doğma əmi qızıyla, salam əleyküm!

Qoyun gəldi Qaxlara, Tunqay Məlik;
Yayıldı yaylaxlara, salam əleyküm!
Bacısı qurban olsun, Tunqay Məlik;
Saz çalan barmaqlara, salam əleyküm!

Cecimi[2] qoydum yükə, Tunqay Məlik;
Qatını bükə-bükə, salam əleyküm!
Yarımı yola saldım, Tunqay Məlik;
Qanlı yaş tökə-tökə, salam əleyküm!

Kağızın ağına bax, Tunqay Məlik;
Çevirib sağına bax, salam əleyküm!
Mən yadına düşəndə, Tunqay Məlik;
"Alagöz" dağına bax, salam əleyküm!

---

[1] Yetkinlik yaşına çatmış qız
[2] Palaz